AXİR və **AXİRƏT** sözlərinin türkcədəki **ARXA/ARKA** sözündən törədiyini bilirdinizmi?

Mən də bu yaxınlaradək bilmirdim. Akkadca və türkcə arasında leksik bağlar üzərində çalışmasaydım bilməzdim. Əslində akkadca çox maraqlı bir dildir və təəssüflər olsun ki, assiroloji üzrə uzmanlarımız yox dərəcəsindədir. Və bu alan dünya çapında semitoloqlara buraxılmış durumdadır. Nədənləri dərində yatır və mövzumuzun dışındadır. Halbuki akkadca Sarqondan başlayaraq (m.ö. XXIV-XXIII yy.) iki min ildən artıq bir dövrdə Anadolu (ta batısınacan), Misir və hardasa Hindistanacan diplomatik yazı dili rolunu oynamışdır. Yəni bu dil əski dünyada bir növ "linqua franka" funksiyasını yerinə yetirmişdir. Və bu dildən sanskrit, perscə və əski yunancaya bir çox kəlmələr keçmişdir. Hind-Avropa kökənli bilinən bir çox kəlmələr əslində akkadcadan alınmadır.

Məsələn farsca bilinən *nam-isim,* latınca *nomo-isim* və ingiliscədəki *name-isim* sözləri akkadcadakı *nibu/nimbu/nabu-isim* sözünə dayanır.

Və hələ akkadcanın Əski Babil və əski Assur dönəmi mətnlərində (m.ğ. XX-XVI yy.) qeyd olunmuşlar. Ya da latıncadakı

paradise-cənnət və farscadakı *firdovs* (cənnət bağları) akkadcadakı *pardēsu* (bağ, park)

akkadcada *sekretu* sözü "inzivaya qapılmış yüksək cəmiyyət qadını" yəni *kəndini gizləmiş*

yunancadakı *barbar* sözününü akkadcada *barbaru-qurd* (***börü***; bəzən ***bəbir***-*leopar*)

Sumerdəri Uruk kəndi sakinlərinə eyni zamanda *tirannu* da deyilirdi. *Tiranu* sözünün akkadca bir digər anlamı da *rəhmli*, *şəfqətli* deməkdir.

Akkadcanı semitik dillərin atası saymaq olar və bu da normal haldır. Amma hind-avropa dil ailəsi sayılan dil qruplarında bir çox leksik kəlmələrin akkadcaya dayandığını çox az dil bilimçisi bilər. Bilənlər də heç bir vəchlə isbatlanmayan nostratik fərziyyə deyilən bir tez uydurmuşlar. Amma yuxarıda da qeyd etdiyim kimi akkadca çox maraqlı dildir və nədənsə bizim etnoqraflar sumercə barədə danışmağı daha çox sevərlər.

Önəmli olan xüsus budur ki, akkadca bünyəsində həddindən çox türkcə kök sözlər barındırır. Bu mövzuda cüzi də olsa səhifəmdə bəzi somut misallar gətirmişəm. ilk dönəm assiroloji uzmanları üçün bu normal baxılan bir gerçəkdi, çünki onlar sümercə və erkən akkacanın Turani bir dil olduğunu gizlətmirdilər. Türkcə bir aqqlyutinativ, yəni iltisaqi dildir. Kök sözlər dəyişməz və dilin leksik potensialı min sənə ərzində çox az dəyişimə uğrar. Yəni türkcə sabit və konservativ bir dildir. Bu gün assiroloqlar etiraf etməzlər, amma erkən akkadca da (m.ö. XXV-XXI yy.) iltisaqi bir dil olmuşdur. Və bu gerçəyi günümüzün semitoloqları söyləməzlər, yəni bütün sami dillərinin atası olan akkadcanın ilk dönəmlərdə bu günkü arabca və yəhudicə kimi flektiv deyil, türkcə kimi aqqlyutinativ bir dil olduğunu gizlədərlər. Halbuki ilk dönəm assiroloji uzmanları (Oppert, Roulinson, Sayce, Westerqard və d.) erkən akkadcanın iltisaqi bir dil olduğunu vurğulamışlar. Peki sonra nə oldu? Qənaətimcə əski çağlarda daha sonrakı katiblər akkadcaya (eynilə sumercəyə) sözönü preffiksləri (preposition) əlavə edərək yeni sözlər yaratmağa başlamışlar. Məsələn ***na-piş-tu*** (həyat) sözü buna bariz örnəktir. -na burada preposition rolunu oynayır, ***piş*** sözün kökü, -tu isə akkadcada qadın cinsi suffiksidir. Maraqlı bu ki, günümüzdə bəzi quzey türkcələrində (tatarca və d.) ***puş*** sözü *həyat, can* anlamındadır. Dilimizdəki *pus-duman* sözü də semantik olaraq eyni kökdəndir. Yəni bir türkcə kök sözə sözönü preffiksi və akkadcaya özgü bir suffiks əlavə etməklə erkən akkadcada *napiştu* sözü ortaya çıxır və bu söz də mitolojidə tanınan (Nuhun prototipi) **Ut**

Napiştum ismində (əbədi yaşamı dadmış) kəndini təzahür edir. Sözgəlişi qeyd edək ki, arabcadakı *nəfəs* və *nəfs* kəlmələri və derivatları akkadcadakı ***napiş*** sözünə dayanır.

Daha sonralar akkadcada kök sözü ortadan parçalayaraq yeni derivat sözlərin alınması sezilir. Və bu gün arabcaya xas bir özəllik olaraq qarşımıza çıxır. məsələn türkcə ***sar*** (sarmaq, çənbərə almaq) feli kök kullanaraq ***aşaru*** (qısmaq) feli yarnmışdır. Və arabcadan dilimizə keçən ***əsir*** sözü bu tip derivatlardandır. Sözün qısası akkadca yeni qramer kuralları tətbiq etməklə derivat kəlmələr yaradır ki, bu da türkcə və digər Ural-Altay dillərinin imkanları və qanunları içində qeyri-mümkündür. Daha doğrusu türkcə söz yaranma kurallarına görə bu tip kəlmələr tamam başqa cür səslənməlidirlər. Lakin göründüyü kimi o dönəm katibləri bu yolu seçmiş və zamanla akkadca (və qismən sumercə) iltisaqi özəlliklərini itirərək flektiv semitik bir dilə dönüşmüşdür. Əslində bu mənim şəxsi qənaətim və gəldiyim nəticədir.

Gənəl kanı isə sumercəyə semitik kəlmələrin dişarıdan gəldiyini söyləyir. Halbuki *nəfəs-napiş* örnəyi ilə bu tip "dişarıdan gələn" semitik sözlərin qaynağı bəlli olur.

Zənnimcə əgər arabcadakı türkcə kök sözlərdən törəmə sözlərin siyahısı tutulsa çox qafalar bunalar. Akkadcada bu tip derivat (törəmə) sözlər həddindən çoxdur və onların təsbiti üçün bir takım türkoloqu görəvləndirmək mümkündür J. Və ən ironik durum bu ki, ***akkadu*** sözü "dağlılar ölkəsi" anlamı daşıyır. Sözün kökündə öntürkcə ***ak/aq*** (qalxmaq, yüksəlmək) feli kök durmaqdadır. Ikinci bir xüsussa, semitlər arasında dağlıların olmamasıdır ki, bu da assiroloqları çaş-baş salmışdır. Yəni erkən akkadlılar semitsələr bu dağlılar hardan çıxdılar? Və ya erkən akkadlılar dağlı xalq olubsa onda hardan peyda olmuşlar?

Yuxarıda verdiyim özət əslində arabca *axir* və *axirət* sözlərinin türkcə kök sözdən yarandığını təsəvvür etmək üçün bir xülasədir. O yüzdən keçəlim daha somut mövzu və misallara. Başlıqdan da bəlli olur ki, arabca *axir* və *axirət* sözləri türkcədəki *arxa/arka* sözündən törəmədir. Ilk öncə ***arka*** sözünün akkadcada ilk kullanma şəklinə diqqətimizi yönəldəlim:

arka

1. aftewrards – sonra, sonralar
2. behind, to the rear – arxa, arxa hissə

maraqlıdır deyilmi? Bu anlamlar akkadcanın əski dönəm mətnlərində (m.ö. XX-XVI yy) qeydlərə keçmişdir, yəni günümüzdən 3600-4000 sənə öncə Əski Babil və Assurda. *Arka* sözünün akkadcada kullanılan 2. anlamı günümüz türkcəsində dəyişməz olaraq qalmışdır. Amma 1. anlamı sadəcə yardımçı zərf kimi zaman bildirən hansısa sözdən sonra (məs. "arxadan gələn bayramınız mübarək olsun" cümləsində olduğu kimi) işlənir. Daha sönra bu söz **arkâ** (son -a səsi uzadılaraq tələffüz edilmiş) şəklini almış və

arkāniş – back; later, subsequently - arxa, kürək; arxa hissə; sonra, sonda, axırda;

arkiş – back; behind - arxa, kürək; arxada;

və ***arkiş taru*** söz birləşməsində "to return" *geriyə (arkaya) dönmək* mənasında işlənmişdir.

Akkadca söz örnəkləri aşağıda təqdim olunacaqdır. Bu arada *arka* sözünün türkcə olması kimsədə şübhə doğurmamalıdır. Ilk öncə semantik baxımdan bu söz türkcədəki ***ard*** kəlməsi (nəyinsə sonrası, davamı, ardı) ilə eyni kökdən yaranmışdır. *–ka* eki isə türkcəyə ta əskilərdən özgü bir sözdüzəldici affiksdir. Akkadca gramerdəsə bu affiks görünmür. Indisə gələlim çox önəmli bir nöqtəyə, yəni türkcə arxa/arka zaman zərfinin akkadcada metateza yoluyla fleksiv dəyişkənliyə uğrayaraq ***axra*** şəklini almasına. Sözgəlişimi qeyd edək ki, bu tip fleksiv dəyişkənlik əski akkadca dönəmindən başlayaraq sıx-sıx görünməkdədir, yəni bu tip dəyişimklər akkadcaya xas bir özəllikdir. çünki akkad dili möhtəşəm matematik fleksiya kurallarına sahib (qarışıq hind-avropa və pozuq kurallara saib sanskritdən fərqli olaraq) bir flektiv dilə dönüşmüşdür. Açığı hazırlıqlı uzmanlarca akkadcadakı (dolayı yolla arabca, yəhudicə və b. semitik dillərdə) bütün sözlərin kök sözləri və yaranma şəkilləri ortaya qoyula bilər. Indisə *arxa-axra* dəyişmə (metatezaya uğrama) örnəkləri:

axritiş – in future – sonra, gələcəkdə (əski babilcə dönəmi, m.ö. XX—XVI yy.)

axratû – 1. future; 2. posterity, progeny – gələcək; gələcək nəsillər;

axarrum – later, thereafter - daha sonra, bundan sonra;

axāru – to be behind – arxada (nəyinsə) olmaq, yerləşmək;

axrataş – in the future – gələcəkdə (orta babilcə XVI—XII yy)

axrūn – after – sonra (yeni assurca dönəmi m.ö. X—VII yy);

maraqlı burasıdır ki, -r -x yerdəyişməsi (metateza) sonrası *axra* kökü mətnlərdə daha çox zaman zərfi kimi işlənir. Yalnız əski babilcə mətnlərində istifadə olunmuş **axāru** sözü istisnadır. Katiblər və günümüzün veriləri bunu göstərir. J

Xülasə

Dəyərli dostlar, burada gətirdiklərim misallar sadəcə cüzi bir örnəkdir. Bu cür misllardan yüzlərcə gətirmək olar və bu da daha geniş bir çalışma alanını qapsar. FB-nin verdiyi imkanlar çərçivəsində gəldiyim bəzi nəticələri sizlərlə paylaşmaq istədim. Sonucdan hasil olan bu ki, akkad dili, türkcə kök sözləri aşırı düzeydə istifadə etmişdir. Məsələn türkcədəki ***kəs*** feli kökdən *qəssab/kasab, iqtibas, təqsim, qism, qasim* və s. derivat semitik sözlər yarnmışlar. Akkadcanı araşdırırkən və xronoloji olaraq izlərkən bunlar aşkar olunur. Türkcə sözyaranma kuralları ilə bu sözlər ortaya çıxamazdı. Yalnız kök sözlərə sözönü eklər (preffiks) və kök sözü ortadan parçalamaqla (transfikslər vasitəsiylə) bu tip sözlər yarana bilərdi. Bu da süni, yapay bir sürəcin, yəni katiblərin gördüyü işin nəticəsidir. Yəni arabca və digər semitik dillər yaranırkən türkcə kök sözlərdən bolluqca faydalanmışlar və bu dillər türkcə kimi matematik qanunlara tabe tutulmuşlar, amma bu kəz fleksiv qanunlara. əslində bunun arxasında bir deha gizlənmişdir, amma bu dəha insan zehniyyətinə xas bir dəhadır. Eyni sürəc daha sonra (m.ö. I minillik) bu gün hind-avropa dil ailəsi adlanan dillərin əcdadlarına uyqulanmaq istənmiş, amma sami dillərində olduğu kimi matematik kurallar icad olunamamış və sonucda əski yunanca, sanskrit və perscə dilləıri Turani dillərdən (Ural-Altay) və akkadcadan etkilənərək leksik kəlmə deposunu dolduraraq semitik dillərdən

fərqli olaraq daha qarmaşıq qramerə tabe tutulmuşlar. Təkrar edirəm bu sürəc erkən sami dilindəki kimi nizamlı gəlişməmişdir. Və bu yüzdən sanskrit kimi bir fəlsəfə və mitoloji dili əslində qarmaşıq dil kurallarına sahibdir. Yəni arabca kimi yapay bir dildir, amma arabcadan fərqli olaraq dayanıqlı dil kurallarına sahib deyildir. Gərçi hind-avropa dillərinə türkcə və akkadcadan keçmiş kəlmələri bariz şəkildə göstərmək üçün başqa mövzular açmaq gərəkir.